İPƏK YOLU, No.1, 2022, səh.150-158

# DİSKURSUN KOQNİTİV TƏDQİQATLARI

**Yeganə Orucova**

Azərbaycan Dillər Universiteti, Bakı, Azərbaycan
e-mail: orucova-yeqana@rambler.ru

**Xülasə.** Məqalədə koqnitiv istiqamətdə aparılan tədqiqatlara, daha dəqiq desək, nitq fəaliyyətini həyata keçirməyə imkan yaradan mental proseslərin təhlilinə, insanın fərdi şüurunda baş verən proseslər öyrənilmişdir. Bu kontekstdə xüsusi əhəmiyyətə malik olan biliklərin tipləri və formatları, onların kommunikasiya prosesində fəaliyyəti mexanizmləri; mental reprezentasiyaların məna dolğunluğuna aid olan problemlər; metaforanın, dünyanın dərk olunması prosesində onun rolunu və onun manipulyativ potensialının tədqiqatları kimi məsələlərə toxunulmuşdur.

**Açar sözlər**: diskurs, koqnitiv tədqiqatlar, mental proseslər, metafora.

**COGNITIVE STUDIES OF DISCOURS**

**Yegana Orujova**
*Azerbaijan University of Languages, Baku, Azerbaijan*

**Abstract.** The article deals with the processes occurring in the individual consciousness, the analysis of mental processes that make it possible to conduct cognitive research, or rather, the implementation of speech activity. Issues such as types and formats of knowledge that are of particular importance in this context; mechanisms of their activity in the process of communication; the fullness of the meaning of mental representations are considered
**Keywords:** discourse, cognitive research, mental processes, metaphor.

**КОГНИТИВНЫЕ ИССЛЕДОВАНИЯ ДИСКУРСА**

**Егана Оруджева**
*Азербайджанский Университет Языков, Баку, Азербайджан*

**Резюме.** В статье рассматриваются процессы, происходящие в индивидуальном сознании, анализ психических процессов, позволяющих проводить когнитивные исследования, а точнее, осуществление речевой деятельности. Рассмотрены такие вопросы как виды и форматы знаний, имеющие особое значение в данном контексте; механизмы их активности в процессе общения; полнота смысла мысленных представлений.
**Ключевые слова:** дискурс, когнитивные исследования, умственные процессы, метафора.

## 1. Giriş

Koqnitiv istiqamətdə tədqiqat aparan dilçilərin diqqət mərkəzində insana idrak və nitq fəaliyyətini həyata keçirməyə imkan yaradan mental proseslər durur. Koqnitoloqlar məzmunu “insan tərəfindən dərk olunan və işarələr sistemi şəklində verballaşan, insanın konseptual sistemin”dən ibarət olan, insanın fərdi şüurunda baş verən proseslərin öyrənilməsinə diqqət yetirirlər [32, s.9]. Diskursun koqnitiv tədqiqatları məsələlərin daha geniş spekterinə toxunur və buna görə də, biz bu kontekstdə xüsusi əhəmiyyətə malik olan bir məsələ üzərində dayanmağı vacib bilirik. Bu aspektə bunlar aiddir:

- biliklərin tipləri və formatları, onların kommunikasiya prosesində fəaliyyəti mexanizmləri;
- mental reprezentasiyaların məna dolğunluğuna aid olan problemlər;

- metaforanın, dünyanın dərk olunması prosesində onun rolunun və onun manipulyativ potensialının tədqiqatları;
- koqnitivistika mövqeyindən diskursiv strategiyaların tədqiqatının əsas vəzifələri.

## 2. Biliklərin tipləri və formatları

Dildə biliklərin müxtəlif tiplərinin təqdimatı, yəni onların mental reprezentasiyaları problemi koqnitiv linqvistika çərçivələri daxilində həll olunan əsas problemlərə aiddir. Bu elmi paradiqmanın təşəkkül tapması (formalaşması) dilçilərin «biliklərin təqdim olunması üçün məlumatların hansı strukturlarının məqsədəuyğun olmaları» və «bu strukturlarda insanın şüurlu davranışını təmin etmək üçün hansı əməliyyatların zəruri olmaları» kimi suallara cavab tapmaq cəhdi ilə əlaqədardır [10, s.18]. Bu sualların cavabını R.Taqardın verdiyi tərifdə tapmaq mümkündür: «koqnitoloqların əksəriyyəti insan şüurunda biliyin mental reprezentasiyalardan ibarət olması ilə razılaşırlar» [12, s.4], və onların əsas tipləri qaydalar, konseptlər, analogiyalar, obrazlar və «konneksionist əlaqələr» hesab olunmalıdır.

Reprezentasiya termininin tənqid olunmasına və XX əsrin 90-cı illərinin sonunda bununla bağlı irəli sürülən fərziyyənin tədricən zəifləməsinə baxmayaraq, dilin mənimsənilməsindən əvvəl insanın beynində müəyyən konseptual sistemin mövcudluğu ideyası həm milli, həm xarici linqvistikada inkişaf etməkdə davam edir. Bir çox dilçilər əmindirlər ki, mental reprezentasiyalar və onların mövcudluğu haqqında məsələ müasir koqnitiv linqvistikanın aktual problemidir, çünki reprezentasiyalar «şüurumuzun vacib ayrılmaz hissəsidir: işarələrə malik olan digər mental formalardan fərqli olaraq dərk olunurlar, yəni biz hər zaman, lazım olan vaxt daxili "ekranımızda" istənilən obyekti, istənilən vəziyyəti canlandıra bilərik … . Biz bunu eksperimental qaydada sübut edə bilərik: şəxslərdən konkret bir şeyi gözü bağlı təsəvvür etməsini və sonra bunun nəticələrini "görünənlər" şəklində təsvir etməsini tələb edərək...» [33, s.15]. Ümumilikdə, mental reprezentasiyaların problemi tipik ünsiyyət situasiyasına aid olan bütün informasiyanın koqnitiv qaydada işlənməsi və təsnif olunması problemidir.

Biliklərin reprezentasiyasının baza vahidləri roluna iddia edən modellər indiki dövrdə koqnitiv linqvistikada kifayət qədərdir. Bu, yaddaşın koqnitiv modelinə, yaddaşın genişləndirilmiş koqnitiv modelinə, dinamik interpretasiya proseslərinə strateji yanaşma modelinə və T.A. Van Deykin və V.Kinçin mətnnin yaradılmasına [25, s.26], F. Conson-Lerdin mental modellərinə [27] və R.Lanqakerin şəbəkə modellərinə [7], R. Jakendoffun koseptual semantika modelinə [6], C.Lakoffun təbii kateqoriyallaşma nəzəriyyəsinə [34], L.Talminin diqqətin konsetrasiyası nəzəriyyəsinə [11], M.Minskinin freym nəzəriyyəsinə [36, s.37] və bəzi digər nəzəriyyələrə əsaslanmışdır. Ayrı-ayrılıqda götürülən bu modellər kifayət qədər yüksək evristik potensiala və müəyyən konkret sahədə tətbiq olunma imkanına baxmayaraq, biliklərin müxtəlif tiplərinin qarşılıqlı fəaliyyət mexanizmlərini (biliklərin tipləri haqqında bax.: [22, s.23, 24] və ümumilikdə kommunikasiya prosesində koqnitiv strukturları tam izah etməyə qadir deyillər. Bunun başlıca səbəbi, bir qayda olaraq, bu modellərin müəlliflərinin mental

reprezentasiyaların strukturunu müəyyənləşdirən hər hansı bir koqnitiv prosesə diqqət yetirmələridir. Lakin, mental reprezentasiyaların qurulması, məhz təfəkkür proseslərində qavrayışdan başlayaraq idrak əməliyyatları daxil olmaqla bir çox koqnitiv proseslərlə bilavasitə əlaqədardır (bax., məsələn.: [31, 34; 21]). Bu zaman mental reprezentasiyalarda informasiyanın təqdim olunması forması və informasiyanın bütövlüyü onun meydana gəlməsində iştirak edən hər bir koqnitiv proseslərin xüsusiyyətləri ilə müəyyən olunur. Məhz bu cür ilkin şərt indiki dövrdə koqnitiv linqvistikada inkişaf etdirilən mental reprezentasiyalara bir neçə müasir inteqrativ yanaşmaların əsasını təşkil edir [5, s.37].

Koqnitoloqların əksəriyyətinin nöqteyi-nəzərinə görə konsept «insan biliklərini və təcrübəsini əks etdirən informasiya strukturunun və bizim şüurumuzun mental və ya psixiki resurslarının; beyin dilinin (*lingua mentalis*) və yaddaşın, mental leksikonun, konseptual sistemin operativ və məzmun vahidi, insan psixikasında əks olunan dünyanın bütün mənzərəsinin» [29, s.90–93] vahidi kimi çıxış edir. Bu mövzu ilə bağlı olan tədqiqatların təhlili, məhz konseptin mürəkkəb struktur olduğunu, onun hər bir komponentinin real gerçəkliyin əks olunmasının müəyyən formatı kimi çıxış etdiyini təsdiq etməyə əsas verir.

Biliklərin reprezentasiya formalarına məntiqi anlayışdan savayı, konseptin strukturunda onlara xas olan, xüsusi funksiyaları yerinə yetirən prototiplər və propozisiya strukturları aiddir. Prototip – semantik şəbəkəni əlaqələndirən və biliklərin kateqorizasiyası üçün referensiyanın koqnitiv nöqtəsi kimi xidmət göstərən mərkəzi halqadır [9].

Propozisiya strukturu müəyyən mahiyyətləri onların xüsusiyyətləri və real şəkildə mövcud olan münasibətləri ilə birlikdə ötürür və öz şəxsi təcrübəsinin dərk olunması üçün tipik konseptual struktur – model kimi çıxış edir [38]. Məhz freymlər və ssenarilər, yəni, predmet və ya hadisələr haqqında insanın bütün biliyindən ibarət olan streotip situasiyalar haqqında məlumatların strukturları ətraf mühitin mahiyyətinin xətti əlaqələrinin əksi kimi təşəkkül tapmış mürəkkəb strukturlu konseptin mental reprezentasiya formalarıdır. [37, s.41]. Əsas mental vahid kimi çıxış edən konseptin məzmun dolğunluğu problemi diskursun koqnitiv tədqiqatlarının daha bir vacib aspektidir. Bu problem mövcud reallığın interpretasiyası prosesində yaranan və "fərdin dünyanın obyektləri haqqında düşünməsi, fantaziyalar qurması" əsasında formalaşan məna problemi kimi təşkil oluna (qurula) bilər [40, s.280]. Sosial və ya praqmatik amilləri tədqiqat prosesinə cəlb etməyin əleyhinə çıxış edən ilk koqnitoloqlardan fərqli olaraq müasir koqnitiv linqvistika dilin və cəmiyyətin qarşılıqlı əlaqəsi probleminə müraciət edərək, şəxsiyyətin "dünya mənzərəsinin" formalaşmasında sosiumun rolunu eksplisit olaraq tanımışdır. Diqqət mərkəzində yalnız kontekstdən kənarda mövcud olan mental reprezentasiyaların müxtəlif formalarının siyahısı deyildir. Dilin mahiyyəti problemi və "ilk növbədə, müxtəlif mənşəli konstruksiyaların köməyi ilə dünyanın təsvirlərində və onun quruluşunda dilin mahiyyəti problemi ilə əlaqədar olan dilin rolu problemi" [30, s.8], yəni "dünyanın qurulması" problemi ön plana çıxdı. Beləliklə, əvvəllər olduğu kimi koqnitiv dilçilər koseptualizasiya və kateqorizasiya ilə bağlı tədqiqatların perspektivli olmasını qəbul edərək,

diskursiv kontekstlə bilavasitə əlaqədə olan, sosial təcrübələrin toplumu kimi başa düşülən fenomenləri tədqiq etməyə başladılar. Başqa sözlə desək, cəmiyyət ümumilikdə, ayrıca fərdin şüurunda biliklərin strukturunun formalaşması zamanı vasitəçi rolunu oynayır. Bu cür yanaşma müasir koqnitiv linqvistikanın üfüqlərini əhəmiyyətli şəkildə genişləndirərək, diskursiv modelləri işləyib hazırlamağa imkan vermişdir. Bu nöqteyi-nəzərdən kommunikasiya prosesində ifadələrin dərk olunması və ifadə olunması proseslərinin izahı mümkün hesab edilir. İlk növbədə, adresatın koqnitiv fon biliklərinin və məlumatlarının qarşılıqlı təsirini izah edən kontekstual modeli qeyd edək [8, s.15, 16]. Bunun əsasını mətnin dekodlaşdırılması ilə bağlı koqnitiv strategiyaların və mətninin dərk olunması və qavranması üzrə koqnitiv modellərin tədqiq olunması təşkil edir [17]. Eksperimental olaraq müəyyən olunmuşdur ki, mental modellər və onların linqvistik realizə olunması yaş və sosial dəyişkənlərlə (sosial status, gender mənsubiyyəti və s.) korrelyasiya edir. Müxtəlif diskursiv təcrübələrin anlayışa təsiri şüura daxil olan yeni informasiyanın təsiri altında baş verən daimi yenilənmə prosesində təzahür edir [4, 17 və s.]. Tarixi parametrin kontekstual modelə daxil edilməsi xarici koqnitiv linqvistikada işlənib hazırlanan diskursiv-tarixi yanaşma üçün xarakterikir [16]. Daha bir model – diskursun transaksiya modeli və ya biliklərin ötürülməsinin koqnitiv modeli məhz bütün kommunikasiya prosesinin izah olunması üçün universal mexanizm kimi çıxış etməsi ilə maraq kəsb edir [28]. Bu modelə müvafiq olaraq istənilən danışan şəxs «yeddi bilik növünə malik olur ki, onlardan beşi informasiya (spesifik xüsusiyyətləri göstərən, propozisiyalı, referensial, predikasiyalı və ekzistensial), ikisi isə – metainformasiyadır (kodla bağlı biliklər və diskursiv situasiya ilə bağlı biliklər) [28, s.53].

Kommunikasiya prosesi həmsöhbətlərin koqnitiv çoxluğu (qrupları) arasında bilərəkdən (denotativ) və qeyri-iradi olaraq (konnotativ) müxtəlif növ biliklərin yerləşdirilməsidir. Bu zaman ünsiyyət aktının uğurunu təmin edən əsas xüsusiyyət kimi, koqnitiv məzmunun və vəziyyətin dəqiq qiymətləndirilməsi və kooperativ davranış qaydalarına riayət etmək arzusu çıxış edir.

Beləliklə, təqdim olunan modeldə modelin dinamikası, subyektivliyi və müqavilə xarakteri həlledici rol oynayır. Bu halda model müəllifinin nöqteyi-nəzərinə görə hər bir dil sisteminin yerinə yetirdiyi əsas diskursiv funksiya «bu diskursiv vəziyyətlə bağlı danışanın subyektiv təsəvvürlərinin kodlaşdırılması və dekodlaşdırılması vasitələrinin təqdim olunması, eləcə də onun subyektiv qiymətləri və maraqlarıdır» [28, s.194]. Linqvistikada ifadənin formalaşmasının xüsusi koqnitiv əsaslarının tədqiq olunması zərurətinin anlaşılması məhz koqnitivizm ideyalarını inkişaf etdirən, linqvistikanın xüsusi versiyası kimi nəzərdən keçirilən koqnitiv-diskursiv adlanan biliklərin yeni paradiqmasının qurulmasına gətirib çıxarmıdşır: «Koqnitiv-diskursiv paradiqmanın əsasını təşkil edən nəzəri prinsiplərə müvafiq olaraq hər bir dil hadisəsi iki aspektdə: həm koqnitiv, həm də kommunikativ baxımdan (diskursiv) öyrənilməlidir. Qeyd olunan hadisənin koqnitiv mövqedən təhlil olunması zamanı ətraf mühitin insanlar tərəfindən dərk olunması ilə bağlı insan təcrübəsinin qeydə alınması və qorunması, qavranılması proseslərində onun rolunun müəyyən olunması təhlil edilməlidir (deməli, diqqət

və təsəvvür aktlarında, insanın dünyanı mənimsəməsi kimi təfəkkür fəaliyyətindəki problemlərin həlli və s.).

### 3. Dünyanın dərk olunması prosesində metaforanın rolu

Təzahürün kommunikativ mövqelərdən öyrənilməsi zamanı müxtəlif tipli mətnlərin yaranması aspekti daxil olmaqla onların ünsiyyət aktlarında iştirakı və bu zaman baş verən diskursiv fəaliyyətdə onların rolu tədqiqatçıların diqqətini cəlb edir» [30, s.6]. Bu cür rakursda nəzərdən keçirilən mənanın formalaşması (başqa sözlə desək, daha çox strukturlaşan və işlənib hazırlanmış sahələrə istinad etməklə fikrin yaranması üsulu) problemi konseptual metaforanın öyrənilməsi ilə sıx şəkildə əlaqədardır. Metaforanın xassələri əsasında əldə olunan əsas nəticə ondan ibarətdir ki, insanın davranışı əsasən obyektiv reallıqla deyil, onun mental reprezentasiyalarının sistemi ilə təyin olunur. Vacib praktik əhəmiyyətə malik olan bu nəticə siyasi diskurs sahəsində işlədilən konseptual metaforalara qarşı tədqiqatçılarda yüksək maraq doğurdu (bax., məsələn: [18, 20, 39 və s.]). Beləliklə, C.Lakoff və M.Conson [35] tərəfindən nəzərdə tutulan metafora nəzəriyyəsinin tətbiqi perspektivləri məhz kommunikasiyanın bu növündə sonradan inkişaf etdirildi. J.Fokonyenin mental məkan nəzəriyyəsinin və konseptual metafora nəzəriyyəsinin sintezi olan və konseptlərin "qarışması" ilə bağlı erkən ideyaları inkişaf etdirən blendinq nəzəriyyəsi, və ya konseptual inteqrasiya nəzəriyyəsi onun tətbiqinin geniş sahəsi nəticəsində xüsusi maraq kəsb edir [13]: "metaforanın istifadə olunması zamanı bizdə iki fərqli şey haqqında iki müxtəlif fikir mövcud olur və bu fikirlər bir yeganə sözün və ya ifadənin daxilində bir-biriləri ilə qarşılıqlı fəaliyyətdə olurlar. Sözün mənası da bu qarşılıqlı fəaliyyətin nəticəsidir».

C.Lakoff və M.Consonun ikidomenli metafora nəzəriyyəsindən fərqli olaraq bu konsepsiyada bir neçə məkan (məkanların) modeli təklif olunmuşdur: iki ilkin məkan, ümumi məkan və blend (qarışıq məkan). Bu cür model metaforanı mənbə-sahədən hədəf-sahəyə bir istiqamətli proyeksiya kimi deyil, inteqrativ, variativ və dinamik proses kimi təsvir etməyə imkan verir, və bu zaman yeni qarışıq mental məkan yaradılır.

Metaforlaşmanın əsası kimi freymlərdən, sxemlərdən, rollardan ibarət olan ümumi məkan, yəni yeni konseptual strukturun təşkili üçün baza kimi çıxış edən mücərrəd elementlər çıxış edir [14, s.137]. Bu və bir çox digər nəticələr koqnitiv paradiqmanın çərçivələri daxilində formalaşan metaforaya xüsisi təfəkkür forması kimi baxmağı təsdiq edir. Metafora, bir tərəfdən, obyekt haqqında təsəvvürü formalaşdırır, digər tərəfdən isə, onun haqqında düşünmə üsulunu və onun qiymətləndirilməsini əlaqələndirir. Bütün bu funksiyaları yerinə yetirmək qabiliyyəti metaforanın kreativ və koqnitiv potensialı ilə təmin olunur, və bu da onu psixoloji təsirin incə mexanizminə çevirir.

**4. Diskursiv strategiyaların tədqiqatı**

Diskursun koqnitiv tədqiqatları haqqında danışarkən, diskursiv strategiyaların öyrənilməsi, məhz üzərində dayanmağı zəruri hesab etdiyimiz sonuncu aspektdir. Koqnitiv-diskursiv yanaşma çərçivələri daxilində bu istiqamətin təzəcə formalaşmasına baxmayaraq o, dil təzahürlərinin öyrənilməsinin kommunikativ (diskursiv) rakursunu əks etdirən daha perspektiv istiqamət hesab olunur. Bu istiqamətdə aparılan tədqiqatların əsasını ünsiyyət prosesinin hər bir iştirakçısının əvvəlki diskursiv təcrübənin gedişatında formalaşan və ünsiyyət prosesinin ümumiləşdirilmiş sxemlərini təmsil edən kommunikativ situasiyaların prototipik koqnitiv modellərinin müəyyən toplumuna malik olması haqqında müddəa təşkil edir [42]. Diskursiv strategiyaların ünsiyyət itirakçılarının şüurunda mövcud olan koqnitiv modellərlə bağlı olmasının sübutu müasir dövrdə diskursiv strategiya tədqiqatları sayəsində əldə edilən əsas nəticədir. Bu nəticə tədqiqatçıların diqqətini müxtəlif mədəniyyətlərin nümayəndələrinin qarşılıqlı fəaliyyətinin öyrənilməsinə yönəltmişdir, çünki aydın məsələdir ki, məhz problemin tədqiq olunmasının bu cür rakursu mədəniyyətlərarası diskursun fəaliyyət göstərməsinin daha əhəmiyyətli aspektlərinə aiddir. Bu məsələyə müraciət etmək göstərmişdir ki, bir çox tədqiqatçılar tərəfindən xülasə olunan və Q.Qraysın, C.Liçin, C.Serlyanın, P.Braunun, S.Levinsonun və digər alimlərin ideyalarına əsaslanan insan ünsiyyətinin universallığı prinsipi sayəsində kommunikasiyanın mədəni xüsusiyyəti praktiki olaraq ciddi təhlilə məruz qalmır. Məhz buna görə də, müxtəlif mədəniyyətlərin nümayəndələrinin diskursiv strategiyalarının müqayisəli təhlili indiki dövrdə koqnitiv paradiqmada çalışan dilçilərin həll etməyə cəhd göstərdikləri perspektiv tapşırıqlardan biridir. Digər tərəfdən, kommunikativ strategiyalar və nitq taktikaları daha bir linqvistik istiqamətin – linqvopraqmatikanın tədqiqat obyektidir. Linqvopraqmatika çərçivələri daxilində müxtəlif diskurs növlərində fransız mədəniyyətinin daşıyıcıları tərəfindən tətbiq olunan strategiyalar və taktikalar haqqında biliklərin toplanması bu tədqiqat işində də vacib məsələlərdən biri kimi qarşıda durur.

**Nəticə.** Beləliklə, aparılan araşdırmalar nəticəsində belə qənaətə gəlmək olar ki, insana idrak və nitq fəaliyyətini həyata keçirməyə imkan yaradan mental proseslərin tədqiqi koqnitiv istiqamətdə tədqiqat aparan dilçilərin diqqət mərkəzindədir. Koqnitoloqlar insanın fərdi şüurunda baş verən proseslərin öyrənilməsinə böyük diqqət ayırırlar. Diskursun koqnitiv tədqiqatları məsələlərin daha geniş aspektlərinə toxunur. Buraya biliklərin tipləri və formatları, onların kommunikasiya prosesində fəaliyyəti mexanizmləri; mental reprezentasiyaların məna dolğunluğuna aid olan problemlər; metaforanın, dünyanın dərk olunması prosesində onun rolunun və onun manipulyativ potensialının tədqiqatları; koqnitivistika mövqeyindən diskursiv strategiyaların tədqiqatının əsas vəzifələri aiddir.

## Ədəbiyyat


1. Abdullayev Ə. (2006), Koqnitiv dilçiliyin əsasları. Bakı: Sabah, 220 s.
2. Məmmədov A.Y. (2010), Diskurs təhlilinin koqnitiv perspektivləri. Bakı: Çaşıoğlu, 92 s.

3. Veysəlli F. (2015), Koqnitiv dilçilik: əsas anlayışları və perspektivləri. Bakı: Mütərcim, 119 s.
4. Cicourel A. (2002), Le raisonnement medical. Une approche socio-cognitive. Paris: Seuil, 234 p.
5. Fauconnier G. (1998), Mental Spaces: Aspects of Meaning Construction in Natural Language. Cambridge: Cambridge Univ. Press, 190 p.
6. Jackendoff R. (1996), Languages of the Mind: Essays on Mental Representation. A Bradford Book. The MIT Press Cambridge, Massachusetts. London, England, 199 p.
7. Langacker R. (1987), Foundations of cognitive grammar. Vol. 1, Stanford (Calif.): Stanford University Press, 202 p.
8. Panagl O., Wodak R. (eds.). (2004), Text und Kontext. Theoriemodelle und methodische Verfahren im transdisziplinären Vergleich (Würzburg: Königshausen und Neumann.
9. Rosch E. (1983), Prototype classification and logical classification. The two systems. In E. F. Scholnick (ed.), *New Trends in Cognitive Representation.* Erlbaum, pp. 73-86.
10. Schank R., Kass A. (1988), Knowledge Representation in People and Machines. Meaning and Mental Representation / Ed. By Eco U., Santambrogio M., Violi P. Bloomington: Indiana University Press, pp.181–2000.
11. Talmy L. (1988), Force Dynamics in Language and Cognition. Cognitive Science. V. 68. pp. 49–100.
12. Thagard P. (1996), Mind. Introduction to Cognitive Science. Cambridge (Mass.): The MIT Press. 217 p.
13. Turner M., Fauconnier G. (1995), Conceptual Integration and Formal Expression. Metaphor and Symbolic Activity. Vol. 10, N3, pp. 183–203.
14. Turner M., Fauconnier G. (2000), Metaphor, Metonymy, and Binding. Metaphor and Metonymy at the Crossroads: A Cognitive Perspective / Ed. A. Barcelona. Berlin; New York: Mouton de Gruyter, pp. 133–148.
15. Van Dijk T. A. (2001), Critical discourse analysis. In D. Schiffrin et al. (eds.), 352–71.
16. Wodak R. (2004), Critical Discourse Analysis. Qualitative Research Practice / C. Seale, G. Gobo, J.F. Gubrium, D. Silverman (eds). London: Sage, pp.197–213.
17. Wodak R. (1996), Disorders in Discourse. London: Longman, 200 p.
18. Баранов А. Н. (1997), Политический дискурс: прощание с ритуалом. Человек, № 6, с. 108–118.
19. Баранов А. Н. (2004), Предисловие редактора. Когнитивная теория метафоры почти 20 лет спустя. Лакофф Дж., Джонсон М. Метафоры, которыми мы живем. М.: Едиториал УРСС, с. 7–22.
20. Баранов А.Н. (1991), Очерк когнитивной теории метафоры. Русская политическая метафора (материалы к словарю). М.

21. Болдырев Н. Н. (2001), Когнитивная семантика: Курс лекций по английской филологии. Тамбов: ТГУ, 123 с.
22. Болдырев Н. Н. (2007), Проблемы исследования языкового знания. Концептуальный анализ языка: современные направления исследования. М.: «Эйдос», с. 95–108.
23. Болдырев Н. Н. (2006), Языковые категории как формат знания. Вопросы когнитивной лингвистики. № 2, с. 5–22.
24. Болдырев Н. Н., Беседина Н. А. (2007), Когнитивные механизмы морфологической репрезентации в языке. Известия РАН. – Сер. Лит-ра и язык. Т. 66, № 1, с. 3–10.
25. Дейк Т. А. ван, Кинч В. (1988), Стратегии понимания связного текста. Новое в зарубежной лингвистике. Когнитивные аспекты языка. М.: Прогресс, Вып. 23, с. 93–152.
26. Дейк Т. А. ван. (1989), Фреймы знаний и понимание речевых актов. Пер. с англ. М. А. Дмитриевой. Язык. Познание. Коммуникация. М.: Прогресс, 310 с. с. 19–30.
27. Джонсон-Лэрд Ф. (1988), Процедурная семантика и психология значения. Новое в зарубежной лингвистике. Вып. XXIII, с. 234 – 257.
28. Йокояма О. (2005), Когнитивная модель дискурса и русский порядок слов. М.: Языки славянской культуры, 424 с.
29. Краткий словарь когнитивных терминов / под общей редакцией Е.С. Кубряковой. Издательство Московского государственного университета Москва. 1996, 245 с.
30. Кубрякова Е. С. (2009), В поисках сущности языка. Вопросы когнитивной лингвистики. №1, с. 5–13.
31. Кубрякова Е. С. (1994), Начальные этапы становления когнитивизма: лингвистика – психология – когнитивная наука. Вопр. Языкознания, № 4, с. 34–47.
32. Кубрякова Е. С. (2007), Предисловие. Концептуальный анализ языка: современные направления исследования. М.: Изд-во «Эйдос».
33. Кубрякова Е. С., Демьянков В. З. (2007), К проблеме ментальных репрезентаций. Вопросы когнитивной лингвистики. №4, с. 8–17.
34. Лакофф Дж. (1988), Мышление в зеркале классификаторов. Новое в зарубежной лингвистике. Когнитивные аспекты языка. М.: Прогресс, Вып. 23, с. 12–51.
35. Лакофф Дж. (2004), Метафоры, которыми мы живём / Дж. Лакофф, М. Джонсон. М.: УРСС, 256 с.
36. Минский М. (1988), Остроумие и логика когнитивного бессознательного. Новое в зарубежной лингвистике. Когнитивные аспекты языка. М.: Прогресс, Вып. 23, с.281–309.
37. Минский М. (1979), Фреймы для представления знаний. М.: Энергия, 151 с.
38. Никитин М. В. (2004), Развернутые тезисы о концептах. Вопр. когнитивной лингвистики, № 1 (001), с.53–65.

39. Опарина Е. А. (2000), Исследование метафоры в последней трети XX века. Лингвистические исследования в конце XX века: Сб. обзоров /Исследования Отдела языкознания / Под ред. Березина Ф. М. М., с. 152–169.
40. Павиленис Р. (1983), Проблема смысла. М.: Мысль, 286 с.
41. Филлмор Ч. (1988), Фреймы и семантика понимания. Новое в зарубежной лингвистике. Когнитивные аспекты языка. М.: Прогресс, Вып. 23, с. 52–92.
42. Цурикова Л. В. (2007), Дискурсивные стратегии как объект когнитивно-прагматического анализа. Вопросы когнитивной лингвистики, №4, с. 98–108.